# TARİX

***Hörmətli Vsinif şagirdləri!***

**Elektron dəftər siz və müəllimləriniz üçün qarşılıqlı əməkdaşlıq, internet üzərindən bilik və bacarıqların mənimsənilməsi, qiymətləndirilməsi  məqsədilə təşkil edilmişdir..**

**Siz mütəmadi olaraq  bloqa daxil olmaqla burada əksini tapmış tapşırıqları müəllim tərəfindən göstərilən tarixdə yerinə yetirməlisiniz.**

**Diqqət!!!    Müəllimin tapşırığı qara rəngli şriftlə, sizin cavablarınız və işləriniz aşagıda göstərilən rəngdə olmalıdır:**

| Şagirdlərin adları | | | | |
|---|---|---|---|---|
| 1.Abbaslı Elcan Əziz o. | | | | |
| 2.Bayramlı İnci Elnur q -tünd sarı | | | | |
| 3.Cəfərova Lalə Faiq q. -mavi | | | | |
| 4.Dursunov İlkinElçin o.-narıncı | | | | |
| 5 .Dursunova Samirə Habil q.-bənövşeyi | | | | |
| | | | | |
| 6.Əbdürrəhmanlı Nuray Həsən q.-tünd göy | | | | |
| 7.Əhmədov Natiq Namiq o.-tünd yaşıl | | | | |
| 8..Ələkbərov Sərdar Ənvər o.-qırmızı | | | | |
| 9..Əliyev Arif Sərdar o. -boz | | | | |

| Şagirdlərin adları | | | | |
|---|---|---|---|---|
| 1.Abbaslı Elcan Əziz o. | | | | |
| 2.Bayramlı İnci Elnur q -tünd sarı | | | | |
| 3.Cəfərova Lalə Faiq q. -mavi | | | | |
| 4.Dursunov İlkinElçin o.-narıncı | | | | |
| 5 .Dursunova Samirə Habil q.-bənövşeyi | | | | |
| | | | | |
| 6.Əbdürrəhmanlı Nuray Həsən q.-tünd göy | | | | |
| | | | | |

| Şagirdlərin adları | | | | |
|---|---|---|---|---|
| 1.Abbaslı Elcan Əziz o. | | | | |
| 2.Bayramlı İnci Elnur q -tünd sarı | | | | |
| 3.Cəfərova Lalə Faiq q. -mavi | | | | |
| 4.Dursunov İlkinElçin o.-narıncı | | | | |
| 5 .Dursunova Samirə Habil q.-bənövşeyi | | | | |
| | | | | |
| 6.Əbdürrəhmanlı Nuray Həsən q.-tünd göy | | | | |
| | | | | |

| Şagirdlərin adları | | | | |
|---|---|---|---|---|
| 1.Abbaslı Elcan Əziz o. | | | | |
| 2.Bayramlı İnci Elnur q -tünd sarı | | | | |
| 3.Cəfərova Lalə Faiq q. -mavi | | | | |
| 4.Dursunov İlkinElçin o.-narıncı | | | | |
| 5 .Dursunova Samirə Habil q.-bənövşeyi | | | | |
| | | | | |
| 6.Əbdürrəhmanlı Nuray Həsən q.-tünd göy | | | | |
| 10..Əlizadə Səbinə Aslanbalı q.-göy rəng.<br>11.İlyaslı Fərman Pənah o.<br>12.İsayeva Elnurə Şərif q.<br>13.Kazımov Uğur Asim o.<br>14.Məmmədova Aysu Gülnaz q.<br>15.Rzayev İlqar Vüqar o. | | | | |

| Şagirdlərin adları | | | | |
|---|---|---|---|---|
| 1.Abbaslı Elcan Əziz o. | | | | |
| 2.Bayramlı İnci Elnur q -tünd sarı | | | | |
| 3.Cəfərova Lalə Faiq q. -mavi | | | | |
| 4.Dursunov İlkinElçin o.-narıncı | | | | |
| 5 .Dursunova Samirə Habil q.-bənövşeyi | | | | |
| | | | | |
| 6.Əbdürrəhmanlı Nuray Həsən q.-tünd göy | | | | |
| 11.İlyaslı Fərman Pənah o.- yaşıl rəng.<br>12.İsayeva Elnarə Şərif q.<br>13.Kazımov Uğur Asim o.<br>14.Məmmədova Aysu Gülnaz q.<br>15.Rzayev İlqar Vüqar o. | | | | |

# TAPŞIRIQ 1

**TAPŞIRIQ -1. Azərbaycan ərazisində aşagıdakı xəritə göstərən qədim insan məskənlərini müəyyən edin, məsələn 1 rəqəminin qarşısında onun aid oldugu məskəni qeyd edin.**

**standart: 2.1.2. Xəritələrdə Azərbaycan ərazisində ilk insan məskənlərinin yerini müəyyənləşdirir.**

**İnteqrasiya: İnformatika 3.2.3. Təqdimat proqramında ilkin işləmək bacarığını nümayiş etdirir.**
**İnteqrasiya: cografiya 3.1.2. Kontur xəritədə ilk yaşayış məntəqələrini qeyd edir.**




**Ramazanov Elmir**
**2-Azıxmagarası, 1-Zar magarası, 5-Qazma magarası, 3-Daşsalahlı, 6-Serkertepe**

Yoxladı: tarix müəllimi: S. Həsənov
Afərin Elmir. Cavab dogrudur.
Qiymət: Azərbaycan ərazisində  qədim insan məskənlərini müəyyən edir-yüksək səviyyə

Sulxayeva Peri.
3. Damcılı 8. Elikömektepe 2. Azıx 5. Qazma 4. Buzeyir
Yoxladı: tarix müəllimi: S. Həsənov
Afərin Pəri. Cavab dogrudur.
Qiymət: Azərbaycan ərazisində  qədim insan məskənlərini müəyyən edir-yüksək səviyyə

Davudov Cahid
4-Buzeyir, 2-Azıx, 3 Sərkərtəpə, 5-Qazma, 6Damcılı 8. Elikömektepe
Yoxladı: tarix müəllimi: S. Həsənov
Cahid, Sərkərtəpə və  Damcılı magaralarının yerlərini səhv salmısan. DSigərləri dogrudur.
Qiymət: Azərbaycan ərazisində  qədim insan məskənlərini müəyyən edir-orta səviyyə

Davudova Mominet
4. Buzeyir, 2. Azıx, 5.Daşsalahlı 6. Serkertepe
Yoxladı: tarix müəllimi: S. Həsənov
Mominət, 2 cavab dogru, 2 cavab yanlışdır. Yenidən işlə, tarixi xəritədən və kontur xəritədən istifadə edərək səhvləri düzəltməyə çalış
Qiymət: Azərbaycan ərazisində  qədim insan məskənlərini müəyyən edir-zəif səviyyə

Qurbanov Turan
8. Elikömektepe 4-Buzeyir, 2-Azıx, 3 Sərkərtəpə, 5-Qazma, 6Damcılı
Yoxladı: tarix müəllimi: S. Həsənov
Turan, 2 ərazini səhv göstərmisən. Digərləri dogrudur.  Səhvləri düzəlt cavabı yenidən yaz.
Qiymət: Azərbaycan ərazisində  qədim insan məskənlərini müəyyən edir-orta səviyyə

İsayeva Aysun
3. Damcılı 8. Elikömektepe 2. Azıx 5. Qazma 4. Buzeyir
Yoxladı: tarix müəllimi: S. Həsənov
Afərin Aysun. Cavab dogrudur.
Qiymət: Azərbaycan ərazisində  qədim insan məskənlərini müəyyən edir-yüksək səviyyə

# TAPŞIRIQ 2

*Hörmətli 6-cı sinif şagirdləri ! I rübdə 6-cı sinif Azərbaycan tarixindən keçdiyimiz ibtidai icma quruluşu bölməsinə aid aşagıdakı cədvəli doldurun. Tapşırıgı qruplar şəklində icra edin.*

*I qrup*
*Elmir, Ramir, Mominət, Aysun -daş dövrü hissəsini;*

*II qrup*
*Pəri, Səid, Məftunə, Cahid -eneolit hissəsini ;*

*III qrup*
*İsmayıl, Tahir, Turan - Tunc dövrü hissəsini*
*yerinə yetirin.*

*Hər qrup özünə aid hissəni işlədikdən sonra digər qrupların işinə nəzər salaraq tapşırıgın necə icra olundugu barədə kənarda rəy bildirsin.*

m

| İBTİDAİ İCMA QURULUŞU | | | | | |
|---|---|---|---|---|---|
| **Dövr** | **Dövrün bölündüyü dövrlər** | **Mərhələlər** | **tarixi** | **yaşayış məskənləri** | **dövrün mühüm yenilikləri** |
| ***Daş dovru*** | ***Paleolit*** | ***Alt Paleolit*** | 100 min il bundan əvvələ qədərki dövr | Azıx | -ulu icma yarandı;<br>-oddan istifadə;<br>-Mənimsəmə təsərrüfatı yarandı;<br>-daşdan istifadəyə başlanılması;<br>- Azıx magarısnda həyat;<br>-daşdan əmək alətlərinin hazırlanmasına başlanılması;<br>ovçuluq və yıgıcılıgın əsas məşguliyyət sahələrinin olması. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | ***Orta Paleolit*** | 100-40 cı minilliklər arası dövr | Qazma, Taglar, Zar magaraları | -neandertal adamın meydana gəlməsi;<br>-Muste dövrü kimi tanınması;<br>-ovçulugun əsas sahəyə çevrilməsi;<br>-axirət dünyasına inamın meydana gəlməsi;<br>-ulu icmanın sıradan çıxmaga başlanması. |
| | | ***Üst Paleolit*** | e.ə 40-12 ci minilliklər | Qarabag və Qazax düşərgələri | -Qəbilə icmasının meydana gəlməsi;<br>-səsli nitqin yaranması;<br>-agıllı insanların meydana gəlməsi |
| | ***Mezolit*** | | e.ə 12-8 ci minilliklər | Qobustan, Damcılı | -ibtidai maldarlıgın yaranması;<br>-ibtidai əkinçiliyin meydana gəlməsi;<br>-heyvanların əhliləşdirilməsinə başlanılması;<br>-mikrolit alətlərdən istifadə;<br>-ox və kamanın kəşfi |
| | ***Neolit*** | | e.ə 8-6 cı minilliklər | Qarabag, Gəncə, Qazax bölgələri | -sənətkarlıgın yaranması;<br>-dulusçuluq, toxuculuq, daşın cilalanması və deşilməsi kimi yeni sahələrin meydana gəlməsi. |
| ***Eneolit*** | | | e.ə 6-4 cü minilliklər | Gəncə-Qazax, Mil-Qarabag, Mugan, Naxçıvan, | -ilk metalın kəşfi;<br>-misdən istifadəyə başlanılması;<br><br>-sonuncu ev heyvanı olan atın əhliləşdirilməsi;<br>-dairəvi evlərin inşası;<br><br>-evlərin içərisində dəfnetmə ayininin yaranması;<br>-qan rəmzi olan |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | oxranın səpilməsi ayininin meydana gəlməsi |
| ***Tunc dövrü*** | ***Erkən tunc*** | | e.ə -4 cü minillik | Sərkərtəpə, Babadərviş, II Kültəpə | -I ictimai əmək bölgüsü yarandı;<br>- tuncdan əmək alətlərinin hazırlanması;<br>-toxa əkinçiliyinin xış əkinçiliyi ilə əvəz olunması |
| | ***Orta tunc*** | | e.ə II minilliyin əvvəllərindən - ortalarına qədər | Kültəpə, Oglanqala, Üzərliktəpə, Göytəpə | -II ictimai əmək bölgüsü yarandı;<br>-ilkin şəhər mərkəzləri meydana gəldi<br>-boyalı qablar mədəniyyətinin formalaşması |
| | ***Son tunc erkən dəmir*** | | e.ə II minilliyin II yarısından-I minilliyin əvvəllərinə qədər | Qaratəpə | -dulus çarxından istifadə;<br>dəmir alətlərin<br>-hazırlanması;<br>-tayfa başçılarının ilahiləşdirilməsi; |
| | | | | | |

**Təşəkkür edirəm uşaqlar… İşinizi dogru icra etmisiniz.. Səhvlərinizə gəldikdə isə bunları rəylərdə özünüz müəyyən etmisiniz.. Hər birinizə bu tapşırıgı icra etdiyinizə görə təşəkkür edirəm.. Hörmətlə fənn müəllimi və sinif rəhbəri Sakit Həsənov.**

# TAPŞIRIQ 3

**Hörmətli VI sinif şagirdləri.. Tarix kabinetində olan tərtibatlara, stendlərə əsasən bülleten hazırlayın..**

**Tapşırığın icra olunma ardıcıllığı:**

1. **Bülleteni əvvəlcə Word proqramında hazırlayın.**
2. **Həmin faylı Google diskdə yerləşdirin.**
3. **Qoogle diskdə yerləşdirdiyiniz faylın google dokumenti ilə əvəz edin.**
4. **Google dokumentinin linkini onlayn tarix dəftərində yerləşdirin.**

**Hörmətlə: Tarix müəllimi Kamran Musayev**



Biz 6 sinif şagirdləri, müəllimin tapşırığına əsasən tarix kabineti üçün bülleten hazırladıq.Bu işi kollektiv şekilde icra etdik.



Bunun üçün əvvəlcə bülleteni elektron formada word proqramında işlədik. Daha sonra hazırladıgımız işi Google disk-də yerləşdirdik. Google diskdəki faylı Google document faylı ilə əvəz etdik..

Son olaraq həmin faylın linkini Onlayn tarix dəftərinə yerləşdirdik..

*Fayla baxmaq üçün qarşıdakı yazıya və həmin yazıya vurdugunuz zaman açılmış ilnkin üzərinə klikləyin:*

 *Tarix kabineti üçün bülleten*

**Hər birinizə təşəkkür edirəm. Tapşırıgı dogru şəkildə icra etmisiniz. Yeganə iradım bülletendə yazdıgınız mətndə ə hərfi əvəzinə e hərfindən istifadə etmənizdir. İstənilən halda işiniz alqışalayiqdir.. Müəllim S. Həsənov**

# TAPŞIRIQ 4

**Hörmətli şagirdlər. 4 cü tapşırıq ümumiləşdirici təkrar, keçilən mövzuların möhkəmləndirilməsini təmin etmək məqsədilə verilir. Tapşırıq fərdi olaraq icra olunmalıdır.. İstər şərh vasitəsilə istərsə də sualların sonundan başlayaraq hər şagird özünə bir səhifə ayırmaq şərtilə cavabları qeyd edin**

***icra müddəti 03-dekabr 20 dekabr 2017 ci il..***

**Suallar, kontur xəritələr üzərində iş, xronologiya**

1. Azərbaycan ərazisində ilk insan sürüləri nə vaxtdan yaşamaga başladı?
2. İbtidai icma dövrünün, daş dövrünün, qədim daş dövrünün bütün mərhələlərini ardıcıllıqla düzün və tarixlərini müəyyən edin
3. Azıx magarası harada yerləşir?
4. Nə üçün alt Paleolit dövrünü Quruçay mədəniyyəti dövrü adlandırırlar?
5. Alt paleolit dövründə mövcud olmuş insanı təsvir edin
6. Alt paleolit dövrünün ilk və son mərhələsində mövcud olmuş əmək alətlərini müqayisə edin
7. Nə üçün insanlar tək tək deyil kollektivlər şəklində (ulu icma) yaşayırdılar?
8. Azıx magarasını hansı alim və neçənci ildə tədqiq etməyə başladı?
9. Azıx magarasından hansı nümunələr tapılmışdır?
10. Azıx magarasının ən qiymətli tapıntısı nədir?
11. Azıx adamı eyni zamanda necə adlanır?
12. Azıx adamı neçə yüz min il bundan əvvəl yaşamışdır?
13. Aşagıda verilmiş kontur xəritədə Azıx, Taglar, Zar, Kəlbəcər, Qazma, Damcılı, Daşsalahlı, Buzeyir magaralarını yerləşdiyi yeri müəyyən edin (adları qeyd et)



14. Nə üçün orta paleolit dövrü həm də Mustye dövrü adlanır
15. Mustye dövründə yaşamış insan necə adlanır?
16. Orta paleolit dövründə hansı inanclar formalaşdı?
17. Orta paleolit dövründə hansı yolla od əldə edilirdi?
18. Üst paleolit döbründə təbiətdə hansı dəyişiklik oldu?
19. Üst paleolitdə hansı insan tipi formalaşdı?
20. Bacarıqlı insanla agıllı insanı (homo sapiens) müqayisə edin
21. Üst paleolit dövründə insanların həyatında hansı mühüm yeniliklər oldu?
22. Üst paleolitdə hansı yeni insan birliyi yarandı?
23. Üst paleolitdə nə üçün anaxaqalıgı formalaşdı?
24. Mezolit dövrünün mühüm yenilikləri hansılardır?
25. Mezolit dövrünün ən mühüm ixtirası nədir?
26. Azərbaycanda Mezolit dövrü abidələri hansılardır?
27. Mezolit dövrünün xırda ölçülü əmək alətləri necə adlanır?
28. Mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçidin əsası hansı dövrdə qoyulmuşdur?
29. Neolit inqilabı nə deməkdir?
30. Neolit dövrü əkinçiliyi hansı əkinçilik adlanır?
31. İnsanlar ilk dəfə hansı dövrdə metalla tanış oldular?
32. Eneolit dövründə insanların yaşayış məskənləri Azerbaycanın hansı ərailərində mövcud olmuşdur?
33. Eneolit dövrü yaşayış binaları necə ərazilərdə və hansı formada salınırdı?
34. At sümükləri hansı abidədən tapılmışdır?
35. Hansı dövrdə insanlar evlərin içərisində dəfn edilirdi?
36. Hansı dövrdə ölülərin üzünə qan rəngi verən qırmızı oxra çəkirdilər?
37. Nə üçün mis alətlərdən uzun müddət istifadə olunmadı?

38. Mis alətlər hansı alətlərlə əvəz edildi?
39. Erkən tunc , Orta tunc dövrü, son tunc dövrlərinin tarixlərini, dövrün mühüm hadisələrini müəyyən edin
40. Kür-Araz mədəniyyəti hansı dövrdür?
41. I və II ictimai əmək bölgüləri nə deməkdir və hansı dövrlərdə baş verib?
42. Erkən tunc dövründə ölülerin dəfn olunması Eneolit dövründən nə ilə fərqlənirdi?
43. Nə üçün erkən Tunc dövründə anaxaqanlıgını ataxaqanlıgı əvəz etdi?
44. Erkən tunc dövründə hansı yeni defnetmə adətləri yarandı?
45. Sərkərtəpə, Babadərviş, I Kültəpə və maxta abidələri üçün ümumi cəhətləri müəyyən edin
46. Erkən tunc dövründə hansı yeni insan birliyi meydana gəldi?
47. Kurqan nə deməkdir və hansı dövrdə meydana gəldi?
48. Orta  tunc dövründə dulusçuluqda hansı yenilik oldu?
49. Orta tunc dövründə yaranmış ictimai əmək bölgüsü hansıdır?
50. Orta tunc dövründə hansı yeni təsərrüfat sahələri yarandı?
51. Tunc dövrü qaya rəsmlərini hansı yazı növünə aid edirlər?
52. Ilkin şəhər məskənləri hansı dövrdə yarandı?
53. Hansı tunc dövrü abidələri (yaşayış məskənləri) ilk şəhər məskənləri sayılır?
54. Aşagıda verilmiş kontur xəritədə ilkin şəhər məskənləri olan Qarabağda Üzərliktəpə, Qaraköpəktəpə, Çinartəpə, Naxçıvanda II Kültəpə, Oğlanqala, Urmiya gölü sahilində Göytəpə  məskənlərini göstərin (xırda hərflərlə abidənin yerləşdiyi yerdə onun adını qeyd edin)



55. Yuxarıda verilmiş xəritədə 54 cü sualda sadalanan abidələrdən hansını göstərmək mümkün deyil və nəyə görə?
56. Sərkərtəpə, Babadərviş, I kültəpə, Maxta  hansı dövrə aid yaşayış məskənləri sayılır və yuxarıda verilmiş xəritədə onların yerləşdiyi ərazini göstərin
57. Orta tunc dövrünə aid hansı abidədən dulusçuluq məhəlləsi, emalatxanası, daş döşənmiş küçə və dulus sobaları aşkar edilmişdir?

58. Dulusçular minerallardan hansı məqsədlə istifadə etmişlər?
59. Orta tunc dövrünə aid iki böyük dulusçuluq mərkəzləri hansılardır?
60. Xocalı Gədəbəy və Talış Mugan mədəniyyətləri hansı dövrə aiddir?
61. Siklopik tikililər hansı dövrdə inşa edilirdi?
62. Siklop tikililərini hansı məqsədlə inşa edirdilər?
63. Son tunc ilk dəmir dövründə saxsı qablar istehsalında hansı yenilik oldu?
64. III ictimai əmək bölgüsü nədir və hansı dövrdə meydana gəlmişdir?
65. Tayfa başçılarının ilahiləşdirilməsi hansı dövrə aiddir?
66. Tayfa başçıları nə üçün müqəddəsləşdirilirdi?
67. Son tunc-ilk dəmir dövründə Azərbaycan tayfaları hansı qüvvələrə sitayiş edirdilər?
68. Son tunc-ilk dəmir dövründə Azərbaycan tayfaları Yaxın Şərqin hansı dövləti daha çox ticarət əlaqələrini saxlayırdılar?
69. Azərbaycan Aşşur əlaqələrində hansı tapıntılar xəbər verir?
70. Xocalıdan tapılmış muncugun üzerinde nə yazılmışdır və bu n yi göstərir?
71. Qonşu ölkələrlə Kür—Araz çayları və Xəzər dənizi vasitəsilə su yolları ilə ticarət əlaqələrinin yaradıldıgını nə sübut edir?
72. Nə vaxtdan dəmirdən geniş istifadə olunmaga başlandı?
73. Azərbaycanın Şimalında ibtidai icma quruluşunun dagılması nə vaxt baş verdi?
74. Qədim insanlar arasındakl təbəqələşməni hansı abidələr sübut edir?
75. Sarıçoban və Borsunlu kurqanları harada yerləşir?
76. Tayfa başçısının taxtla, qulluqçuları ilə birgə basdırıldıgı qəbir hansıdır?
77. Sizin fikrinizcə ibtidai icma quruluşu nə üçün dagılırdı?
78. Azərbaycanın Şimalında yoxsa Cənubunda erkən dövlət qurumları daha tez yarandı və bunun səbəblərini göstərin.
79. E.ə III-II minilliklərdə Azərbaycanın Şimalında və Cənubunda hansı tayfalar yaşayırdı?
80. Eramızdan əvvəl III minilliyin II yarısında Azərbaycanın Cənubunda hansı dövlət qurumları meydana gəldi?
81. Lullubi dövlət qurumunu hansı tayfalar yaratdılar?
82. Lullubi dövlət qurumunun meydana gəlmə tarixini minillik və əsrlə müəyyən edin
83. Nə üçün Lullubi hökmdarı padşahlar padşahı adlanırdı?
84. Lullubi dövlət qurumunun ərazisi Şimal və Cənubdan hansı yerlərə qədər uzanırdı?
85. Lullubi dövlət qurumu hansı ərazi ilə iqtisadi əlaqələr yaratmışdı?
86. Lullubilər İkiçayarasının hansı şəhəri ilə mal mübadiləsi edirdilər?
87. Lullubi mədəniyyətinə hansı mədəniyyətin güclü təsiri olmuşdur?
88. Lullubilər hansı yazını mənimsədilər?
89. Lullubilər hansı varlıqlara sitayiş edirdilər?
90. Kutilər hansı ərazidə yaşayırdılar?
91. Kuti dövlət qurumu nə vaxt yarandı?
92. Kutilər Mesopotamiyada mövcud olmuş hansı dövletle dost münasibət yaratmışlar?
93. Kutilər Mesopotamiyada mövcud olan hansı dövlətlə rəqabət aparırdılar?
94. Kutilər Mesopotamiyada yerləşən hansı dövləti asılı və ziyyətə saldılar?
95. Kutilər neçənci əsrdə Akkad dövlətini süquta ugratdılar?

96. Kutilər Akkad dövlətini nə qədər öz əsarəti altında saxladılar?
97. Kutilərin agalıdı dövründə Mesopotamiya necə idarə olunurdu?
98. Mesopoptamiya zəbt edildikdən sonra Kuti dövlət qurumunun ərazisi hansı ərazilərə qədər uzanırdı?
99. Kutilərin hakimiyyəti dövründə İkiçayarasında hansı müsbət hadisələr baş verdi?
100. Kutilərin Mesopotamiyadakı agalıgına nə vaxt son qoyuldu?
101.Lullubi və Kuti dövlət qurumları nə zaman süqut etdi?
102. Lullubi və Kuti dövlət qurumları süquta ugradıqdan sonra hansı tayfalar müstəqil oldu?
103.Turukkilər hansı dövlətlə və nə üçün mübarizə aparırdılar?
104.Xəritədə Azrbaycan ərazisində yaranmış erkən dövlət qurumlarını (Lullubi L, Kuti K hərfi ilə qeyd edin) və Kutilərin yürüş istiqametini ox işarəsi ilə göstərərək 100 il əsarətdə saxladıqları ərazini göstərin



106.Aşagıda verilmiş xəritədə e. ə III-II minilliklərdə Azərbaycanın Şimalında və Cənubunda yaşamış tayfaları göstərin (lazımi yerde tayfanın adını qeyd et).



Lulubi su turukki kaspi

11-ci mövzu Manna dövlətinin yaranması və yüksəlişi

1. Manna dövləti nə zaman və hansı ərazidə meydana gəldi?
2. Mannanın təbii sərvətləri, təbiəti, əhalinin məşguliyyəti haqqında məlumat verin
3. Mannada taxıl anbarları kimlərə məxsus idi?
4. Mannanın hansı vilayəti öz atları ilə məşhur idi?
5. Mannada vahid dövlət yaranmamışdan qabaq e.ə XI əsrdə hansı xırda dövlət birləşmələri mövcud idi?
6. Hansı vilayət Lullubilərin vətəni sayılırdı?
7. Mannanın qonşulugunda yerləşən hansı dövlətlər Manna vilayətlərini ələ keçirməyə çalışırdı?
8. İlk vaxtlar Mannanın müdafiə qabiliyyətini zəiflədən başlıca amil hansı idi?
9. Manna vilayətlərini mərkəzi hakimiyyətə tabe edən, ölkədə canişinlik sitemini yaradan hökmdar kim idi?
10. İranzu neçənci illərdə hakimiyyətdə oldu?
11. Qonşuluqda yerləşən Urartu dövləti tərəfindən tutulmuş Manna ərazilərini İranzu hansı şəraitdən istifadə edərək geri qaytardı?
12. İranzunun dövründə Mannanın Şimal sərhədləri haraya qədər uzanırdı?
13. İranzunu dövründə Manna hansı dövlətlə müttəfiq oldu?
14. İranzunun ugurlu xarici siyasətinin hansı müsbət nəticələri oldu?

15. İranzunun mərkəzləşdirmə siyasətinə qarşı çıxan bəzi vilayət hakimləri hansı düşmən dövlətin sifarişlrini yerinə yetirirdilər?
16. Kontur xəritədə Mannanın ərazisini və paytaxtını, qonşuluqda yerləşən dövlətləri müəyyənləşdirin:



17. Mannada İranzuya qarşı üsyan kimlər tərəfindən təşkil edilmişdir?
18. Mannada İranzuya qarşı baş vermiş üsyan kimin köməyi ilə yatırıldı?
19. İranzudan sonra hakimiyyətə kim gəldi?
20. Aza neçənci illərdə hakimiyyətdə oldu?
21. Azadan sonra hakimiyytə kim gəldi?
22. Ullusununun hakimiyyətə gəlməsinə kim kömək etdi?
23. Ulusunu kömək müqabilndə I Rusaya nə verdi?
24. Ullusunu neçənci ildə hakimiyy tə gəldi?
25. Ullusunu hakimiyyətə gələn zaman Aşşur hökmdarı nə üçün Mannaya hücun edib İzurtunu yandırdı?
26. II Sarqon hansı şərtlərlə Ullusununu bagışladı?
27. E.ə 714 cü ildə II Sarqon Mannaya hücum edəndə onun hansı məqsədləri var idi?
28. II sarqonun Mannaya e.ə 714 cü il yürüşünün nəticəsini göstərin

Mövzu 13: Mannanın süqutu

1. Kimmer iskit və sak tayfaları hansı dildə danışan tayfalar idi?
2. Onlar nə zaman Azərbaycan ərazisinə yürüş etdi?
3. Onlar hansı ərazidən gəldilər?
4. İskit padşahlığı hansı ərazidə yarandı?
5. İskit padşahlığı nə vaxt yarandı və bu dövlətin görkəmli hökmdarı kim idi?

6. Mannanın Aşşurla uzun zaman davam etmiş müttəfiq əlaqələrinə nə üçün son qoyuldu?
7. Aşşurla əlaqələri kəsərək müstəqil siyasət yeritməyə başlayan Manna hökmdarı kim idi?
8. Aşşur hökmdarı Aşşurbanipal nə üçün Mannaya hücum etdi?
9. Aşşurbanipal Mannaya neçənci ildə hücum etdi və bunun nəticəsi necə oldu?
10. Ahşerinin sonu necə nəticələndi?
11. Ahşeridən sonra hakimiyyətə kim gəldi?
12. Ualli Ahşeridən f rqli olaraq xarici siyasətində hansı dəyişiklik etdi?
13. Hansı mübarizədə Manna Aşşura kömək etdi?
14. Mmanna dövləti əksər vaxtlarda düşmən dövlətlərindən qorunmaq üçün hansı dövlətlə müttəfiq olmuşdur?
15. E.ə 593 cü ildə Mannanın siyasi vəziyyəti necə olmuşdur?
16. Manna dövlətinin müstəqilliyinə nə vaxt və hansı dövlət tərəfindən son qoyuldu?
17. İskit dövləti nə vaxt və hansı dövlət tərəfind n süquta ugradıldı?

Mövzu 14: Mannanın təsərrüfatı və mədəniyyəti

1. Nə üçün Manna dövlətində metalişləmə və z rgərlikdə böyük ugurlar qazanılmışdır?
2. Parça qalıqları və qızıl cam Mannanın hansı ərazisindən tapılmışdır?
3. Həsənlidən tapılmış parça qalıqları nəyi sübut edir?
4. Mannada təsviri sənətin inkişaf etdiyini hansı tapıntılar sübut edir?
5. Riton nə deməkdir?
6. Qrifon və sfinks sözlərinin mənasını aydınlaşdırın
7. Mannada əhali hansı dinə inanırdı?
8. Həsənlidən tapılmış qızıl camın üzərindəki hansı təsvirlər Mannalıların dini görüşləri ilə baglıdır?

9. Azərbaycanın cənubundakı əhali mixi yazı ilə tanış oldugu halda nə üçün biz deyirik ki Mannada heroqlif yazı da mövcud idi? Bunu hansı tapıntı sübut edir?

10. Hansı tayfa və şəxs adları türk dilində məna verir?

11. Mannalıların dili hansı dil idi?

12. Kitabın 71 ci səhifədə verilmiş sualları cavablandırın

13. 62 ci səhifədə verilmiş xəritədən və dərlikdə Manna dövlətinə aid mövzulara nəzər yetirərək aşagıdakı xəritədə Manna, Aşşur, Urartu, Midiya və İskit padşalıgının ərazisini göstərin



**Manna dövləti, ibtidai dövr  əsas hadisələrin xronologiyası**

**HADİSƏ** **TARİX**

1. Azərbaycanda ilk insan sürülərinin meydana gəlməsi ______________________________

2. Azıx mağarasındakı ən qədim ocaq qalığının aid edildiyi dövr_______________________

3. Azıxantropun aid edildiyi dövr. Alt çənə sümüyünün yaşı____________________________

4. Alt paleolit dövrü mövcud olmuşdur 100 min il bundan evvele qeder
________________________________

5. Orta paleolit dövrü mövcud olmuşdur 100 min il bundan evvelden 35 min il bundan evvele qeder_________________________________

6. Üst paleolit dövrü mövcud olmuşdur 100 min il bunda evvelden 35 min il bundan evvele qeder_________________________________

7. Mezolit (orta daş) dövrü mövcud olmuşdur _________________________________

8. Neolit (yeni daş) dövrü mövcud olmuşdur ________________________________

9. Eneolit (mis-daş) dövrü mövcud olmuşdur ________________________________

10. Əhliləşdirilmiş atın sümüklərinin (Cəlilabad)
aid edildiyi tarix ________________________________

11. Tunc dövrü mövcud olmuşdur ________________________________

12. Erkən tunc dövrü mövcud olmuşdur ________________________________

13. Orta tunc dövrü mövcud olmuşdur ________________________________

14. Naxçıvan şəhəri mövcud olmuşdur ________________________________

16. Son Tunc ilk dəmir dövrü mövcud olmuşdur ________________________________

17. Dəmirdən geniş istifadə olunmağa başlanmışdır ________________________________

18. Lullubi və Kuti dövlət qurumlarının yaranması ________________________________

19. Lullubinin güclü bir dövlət qurumuna çevrilməsi ________________________________

20. Kutilərin Akkad dövlətini süquta uğradaraq
Mesopotamiyanı işğal etməsi ________________________________

21. Kutilərin Mesopotamiyada hakimiyyətinə son qoyulması _________________________

22. Kuti və Lullubi dövlət qurumlarının süquta uğrayıb
Xırda vilayətlərə bölünməsi ________________________________

23.Azərbaycanın Cənubunda əhali mixi yazı ilə tanış idi ______________________________

23. Azərbaycanın Şimalında İbtidai icma quruluşu
dağılmağa başladı ________________________________

24. Manna dövlətinin yaranması ________________________________

25. İranzunun hakimiyyəti illəri ________________________________

27.Azanın hakimiyyət illəri ________________________________

26. Ullusununun hakimiyyət illəri ________________________________

27. II Sarqonun Mannaya böyük hücumu.
Urartunun birdəfəlik məğlubiyyəti ________________________________

28. Manna ilə Urartu arasında İskit padşahlığının yaranması___________________________

29. Ahşerinin hakimiyyət illəri ________________________________

31. Aşşurbanipalın Mannaya hücumu ________________________________

32. Uallinin hakimiyyət illəri ________________________________

33. Mannanın müstəqil dövlət kimi mənbədə adının kilməsi___________________________

34. Mannanın süqutu. Midiya tərəfindən Mannanın varlığına
Son qoyulması ________________________________

X